**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA İNFORMASİYA XİDMƏTLƏRİ BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 - Sahə iqtisadiyyatı
Elm sahəsi: İqtisad elmləri

İddiaçı**: Natəvan Filman qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**Bakı–2024**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmlər doktoru, professor<br>**İlham Alıcı oğlu Aslanzadə** |
| Rəsmi opponentlər: | iqtisad elmlər doktoru, dosent<br>**Əliyev Əlövsət Qaraca oğlu** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Əzizov Ədalət Baba oğlu** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Poluxov Toğrul Nizami oğlu** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>____________________ | iqtisad elmləri doktoru, professor<br>**Nazim Müzəffərli (İmanov)** |
| Dissertasiya şurasının elmi katibi:<br>____________________ | iqtisad üzrə fəlsəfə doktoru,<br>**Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri:<br>____________________ | iqtisad elmləri doktoru, professor<br>**Tərbiz Nəsib oğlu Əliyev** |

# İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal informasiya cəmiyyətinin inkişaf trendlərindən ən əsası rəqəmsallaşma proseslərinin əhatə dairəsinin genişlənməsi və tətbiq səviyyəsinin dərinləşməsi ilə əlaqədardır. Bunun nəticəsində rəqəmsal və innovativ iqtisadiyyat sürətlə inkişaf edir. Rəqəmsal texnologiyalar və transformasiyalar faktiki olaraq 4-cü Sənaye İnqilabı platformasının özəyini təşkil edərək iqtisadi prosesləri, münasibətləri daha da təkmilləşdirir. Yeni iqtisadi paradiqmanın dəyişilməsi və informasiyanın iqtisadi inkişafın həlledici amilinə çevrilməsi iqtisadiyyatda yeni sektorun yaranmasına səbəb oldu. İKT sektorunun inkişafı, xidmətlərin nomenklaturasının genişlənməsi və informasiya xidmətlərinin istehsal və istehlak həcminin artması biznesin təşkili formalarına, sosial-iqtisadi proseslərə, onun monitorinqi mexanizmlərinə, regionların inkişafının idarə edilməsinə, həmçinin əhalinin yaşayış tərzinə öz əhəmiyyətli təsirini göstərir. Bundan başqa informasiya xidmətləri əhalinin müxtəlif növ informasiyaya olan tələbatlarının təmin edilməsinin əlverişli aləti olduğundan informasiya texnologiyalarının əlçatanlığı və informasiya xidmətləri bazarının vəziyyəti müasir dünyada insanın həyat keyfiyyətinin meyarlarından biri kimi istənilən dövlətdə biznes fəallığının səviyyəsinin davamlı inkişaf nəticələrinin və əhali rifahının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

Son onilliklər cəmiyyətin artan tələbatına, təhsilin və elmin sürətli inkişafına müvafiq olaraq virtual məkanda geniş istifadə olunan, insanlar üçün mühüm əhəmiyyət daşıyan, iqtisadi inkişafda ciddi rol oynamağa başlayan informasiya məhsulları və xidmətləri bazarları formalaşmış və sürətlə inkişaf etməkdədir. Bu bazarlar sərhədsiz, qlobal və liberal xarakter ilə səciyyələnir. Xüsusilə, İnternet şəbəkəsi bütün dünya ölkələrini əhatə etməklə, informasiyanın qısa zamanda və az məsrəflə dünyanın istənilən nöqtəsinə ötürülməsi imkanları yaratmışdır. Bu gün İnternet məkanında daha fəal olmaq istəyən dövlətlər, şirkətlər bazarda daha çox paya malik olmaq üçün yeni məhsul və xidmətlər yaradır, internet mühitində daha çox gəlir əldə etməyə, internetin iqtisadi imkanlarından faydalanmağa çalışırlar. İnternet mühitində

əmtəə nişanlarının, təşkilat, şirkət və digər qurumların aktiv fəaliyyəti onların inkişafına təkan verməklə yanaşı, iqtisadi səmərə əldə etmələrinə geniş bazarlar açır. Bu bazar nə qədər qlobal və liberal olsa da bir çox hallarda qeyri-sağlam və ədalətsiz rəqabət aparmaq üçün vasitəyə də çevrilmişdir. Hazırda dövlətlər bu prosesin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirirlər.

Dünya təcrübəsi göstərdi ki, informasiya iqtisadi sistemin tərkib hissələrindən biridir. Çünki heç bir iqtisadi sistem informasiya axınları olmadan mövcud ola bilməz. İnformasiya axınlarında yaranan maneələr, informasiya blokadası, əksər hallarda iqtisadi sistemin sıradan çıxmasına və iqtisadi inkişafın zəifləməsinə və gəlirin azalmasına gətirib çıxarır. Bu baxımdan informasiya məhsulları və xidmətləri bazarına çıxış imkanlarının artırılması, cəmiyyətin informasiya təminatının yaxşılaşdırılması sosial-iqtisadi inkişaf üçün son dərəcə vacibdir. İnformasiya – insan fəaliyyətinin bütün sahələrinə istinad edən unikal substansiyadır. İnformasiya- bilik və mövqe bələdçisi, ünsiyyət, qarşılıqlı anlayış və əməkdaşlıq aləti rolundan çıxış edən əvəzolunmaz vasitədir.

Dünya ölkələrində uzun zamandan bəri davam edən proseslərə Azərbaycan 1990-cı illərin ortalarından sonra qoşulsa da, İKT-nin əsas inkişafı təxminən 1997-1998-ci illərdən sonra sürətlənmişdir. Bu gün İKT sektoru ölkə iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biridir. Lakin ölkəmizin qlobal informasiya məhsulları və xidmətləri bazarında mövqeyi qənaətbəxş deyil. Bu baxımdan bu bazarın inkişaf etdirilməsi ölkənin gələcək inkişafı üçün olduqca vacibdir. Azərbaycan Respublikası İKT sferasının və informasiya məhsulları və xidmətləri sektorunda öz mövqeyini yüksəltmək istiqamətində dövlət səviyyəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Ölkədə internet infrastrukturu demək olar ki, qurulmuşdur. Dövlətimizin qlobal informasiya xidmətləri və məhsulları bazarında özünəməxsus yer tutması, informasiya məhsulları və xidmətlərinin ixracına hədəflənməsi ölkənin iqtisadi, sosial və intellektual inkişafı üçün əhəmiyyətlidir. Bu baxımdan seçilmiş tədqiqat mövzusu nəinki hazırkı dövr, həmçinin yaxın onilliklər üçün də aktual hesab oluna bilər.

Son zamanlar elmi ədəbiyyatda, bütövlükdə xidmət sektoru və onun ayrı-ayrı sahələri ilə əlaqəli elmi nəşrlərin sayının əhəmiyyətli

dərəcədə artması müşahidə olunur. Yerli və xarici tədqiqatçıların müasir elmi işlənmələrinin geniş təbəqəsi xidmət sektorunun proqnozlaşdırılması, planlaşdırılması, təşkili, əlaqələndirilməsi və idarə edilməsi, o cümlədən informasiya bazarının ayrılmaz tərkib hissəsi kimi informasiya xidmətləri bazarının səmərəli fəaliyyət göstərməsi problemlərinin həllinə yönəlmişdir. Xidmətlər bazarının fəaliyyətinin əsasları və xidmət sektorunda informasiya xidmətlərinin yeri O.N.Balayeva, İ.Bernar, D.X.Bryus, L.L.Berri, V.Q.Veledinski, N.A.Voskoloviç, B.M.Genkin, J-K.Kolli, T.A.Krakovskaya, F.Kotler, A.Parasuramana, N.Q.Fedko, V.A.Zeytami və başqalarının əsərlərində nəzərdən keçirilmişdir.

İKT sektorunun inkişafı, informasiya cəmiyyətinin qurulması, informasiya iqtisadiyyatı, innovasiyalı inkişafla bağlı tədqiqatlar F.Aqion, D.Bell, K.Errou,F.Mahlup, P.Druker, M.Kastels, F. Kotler, E.Toffler, B.Tviss, Y.Şumpeter və s. alimlər tərəfindən araşdırılmışdır.

İnformasiya xidmətləri bazarının formalaşması və sonrakı fəaliyyətinin nəzəri və praktik aspektləri V.İ.Baluta, E.G.Borşev, D.I.Blumenau, V.N.Bugorski, A.S.Volodkin, S.İ.Mayorov, İ.S.Melyuxin, T.V.Moiseeva, A.Y.Pavlov, S.D.Podprugin, D.Y.Polukarov, A.İ.Rakitov, R.V.Sokolov, V.L.Tambovtsev, S.M.Treskov, V.P.Tixomirova, A.V.Xoroşilova və d. kimi alimlərin əsərlərində tədqiq olunmuşdur. D.Bell, V.L.İnozemtsev, M.Kastells, S.Lavlok, E.A.Petrova, S.D.Podprugin, T.Stounyer, D.Stigler, K.Errou öz əsərlərində informasiya anlayışı, onun mahiyyəti və iqtisadi kateqoriya kimi təkamülü problemlərini geniş şəkildə təhlil etmişlər.

Müstəqillik illərində Azərbaycanın innovasiyalı inkişafı, informasiya cəmiyyəti, informasiya iqtisadiyyatı və İKT sektorunun inkişaf problemlərində Ə.C.Muradov, R.M.Əliquliyev, Y.Hüseynli, Q.İmanov, V.Qasımlı, A.Hüseynova, F.Qasımov, A.Musayev, Ə.Q.Əliyev, R.O.Şahverdiyeva, R.Mahmudov, G.İ.İsmayılov, S.Q.Kərimov, S.B.Həbibullayev, T.İ.İbrahimzadə, Y.A.Məlikov, A.İ.Məmmədova, L.Ə.Allahverdiyeva, G.A.Fətəliyeva, T.N.Poluxov, Ə.B.Əzizov, M.N.Əlizadə, V.Q.Nəcəfova, N.D.Verdiyevin tədqiqatları vardır. Bu predmet sahəsinin işlənmə dərəcəsinin təhlili göstərir ki, informasiya bazarının tədqiqi prosesi hələ də sistemli

xarakter daşımır, informasiya xidmətləri sahəsində fəaliyyətin planlaşdırılmasına sistemli yanaşma mövcud deyildir. Bu da mövzu seçimini müəyyənləşdirən, tədqiqatın məqsədi, vəzifəsi və strukturunu müəyyənləşdirən əsas amillərdən biri olmuşdur.

Beləliklə, deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, tədqiqat mövzusunun aktuallığı aşağıdakılarla müəyyən olunur:

- iqtisadi nöqteyi-nəzərdən: müasir dövrdə informasiya resursu ən vacib və ən dəyərli resurslardan birinə çevrilmişdir;
- metodik nöqteyi-nəzərdən: kompüter və şəbəkə sistemlərinin inkişafı ilə informasiya texnologiyaları dominant mövqe qazanmışlar;
- təşkilati nöqteyi-nəzərdən: Azərbaycan Respublikasında informasiya xidmətləri bazarı inkişafının ilkin mərhələsindədir ki, bu da xüsusi tədqiqatlar tələb edir;
- perspektiv inkişaf nöqteyi-nəzərindən: gələcək informasiya texnologiyalarınındır, onlar bir çox hallarda sosial-iqtisadi inkişafın dinamikasını müəyyən edəcəklər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın **məqsədi** Azərbaycanda informasiya məhsulları və xidmətləri bazarının formalaşması vəziyyətini tədqiq etmək, mövcud problemləri aşkar etmək və inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı **vəzifələrin** həyata keçirilməsi nəzərdə tutulur:

- informasiya məhsulları və xidmətləri bazarınının spesifik xüsusiyyətlərinin və onun qloballaşmanın sürətlənməsinə təsirinin elmi nəzəri aspektlərinin tədqiq edilməsi;
- İnformasiya məhsulları və xidmətləri bazarının formalaşmasının və inkişafının sosial-iqtisadi əhəmiyyətinin və təsirinin araşdırılması;
- İnformasiya məhsulları və xidmətləri bazarının inkişaf dinamikası ilə bağlı dünya təcrübəsinin öyrənilməsi;
- Azərbaycanda İKT sferasının informasiya məhsulları və xidmətləri bazarının statistik təhlili və mövcud vəziyyətinin qiymətləndirilməsi əsasında mövcud çatışmazlıq və problemlərin aşkar edilməsi;

- İnformasiya xidmətləri sektoru ilə iqtisadi inkişaf arasında asılılığın müəyyən edilməsi;

- Dünya trendlərinə və nəzəri yanaşmalara əsaslanaraq informasiya xidmətləri bazarının inkişaf istiqamətləriylə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələrin işlənilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın aparıldığı zaman sistemli yanaşma, iqtisadi və statistik təhlil metodlarından, abstrakt-məntiqi, struktur-funksional, reqression analiz və qrafiklərin qurulması üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müəllif tərəfindən müdafiəyə aşağıdakı əsas müddəalar çıxarılır:

- Milli İnformasiya Cəmiyyəti quruculuğu şəraitində informasiya xidmətləri bazarının formalaşmasının elmi-nəzəri əsaslarının tədqiqi və onun qlobal bazara inteqrasiyası mərhələsində informasiya xidmətləri və məhsulları bazarında iqtisadi münasibətlərin formalaşması, inkişaf xüsusiyyətlərinin, prinsiplərinin və tendensiyalarının müəyyənləşdirilməsi, həmin sahənin Azərbaycanda inkişaf etdirilməsinin elmi cəhətdən əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir;

- Qabaqcıl ölkələrdə İnformasiya iqtisadiyyatının, o cümlədən informasiya xidmətləri və məhsulları bazarının qloballaşması fenomeninin öyrənilməsi, inkişaf etməkdə olan ölkələrin həmin bazara iqtisadi, sosial və institusional inteqrasiyası üçün yaratdığı yeni imkanların elmi-nəzəri aspektdən əsaslandırılmasına tələbat vardır;

- İnformasiya xidmətləri bazarının əsas texniki-texnoloji bazası olan İKT sferasının Azərbaycandakı mövcud vəziyyətinin təhlili, informasiya xidmətləri və məhsulları bazarının dinamik inkişafa nail olmaq imkanlarını təsdiqləyir;

- İnformasiya cəmiyyəti və iqtisadiyyatı şəraitində informasiya resurslarının əməyin həlledici vasitəsinə çevrilməsi və yeni istehsal üsulunun yaranması ilə əlaqədar informasiya xidmətləri və məhsulları bazarında baş verən iqtisadi-texniki proseslərin elmi cəhətdən araşdırılması həmin sahənin potensial imkanlarını aşkara çıxarır;

- İnformasiya sektoru ilə iqtisadi inkişaf arasındakı asılılığın ekonometrik metodlarla və kompüter modelləşdirilməsi vasitəsi ilə qiymətləndirilməsi, İKT-nin inkişafının iqtisadi artıma səbəb olduğunu təsdiqləyir;

- İnformasiya xidmətləri məhsullarının müvafiq bazarlarda rəqabət qabiliyyətliliyinə birbaşa təsir edən əsas amillərin təhlili və qiymətləndirilməsi, həmin sahədəki təhlükələrin və çağırışların yaranmasını müəyyənləşdirir və qlobal informasiya məkanının bütün səviyyələrində rəqabətliliyin yüksəlməsinə səbəb olur;

- İnformasiya xidmətləri bazarının elektron ticarətlə bağlı seqmentinin mövcud vəziyyətinin xüsusiyyətlərinin, strukturunun qabaqcıl dünya ölkələrində tədqiqi və həmin məsələnin yerli şəraitdə sorğu metodu ilə tədqiqatının nəticələri müvafiq sahədə dövlət səviyyəsində tədbirlərin həyata keçirilməsinin önəmliliyini göstərir;

- İnformasiya xidmətləri bazarında informasiyanın istehsalı, emalı, yayılması və təhlükəsizliyi ilə bağlı mövcud dövlət siyasətinin əsas məqsədlərinin, vəzifələrinin, hüquqi rejiminin formalaşdırılması üzrə problemlərin araşdırılması həmin sahədə mövcud tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsini və yenilərinin işlənməsini zəruri edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilikləri aşağıdakılar hesab edilə bilər:

–Mövcud elmi əsasların və nəzəri yanaşmaların sistemli təhlili əsasında informasiya məhsulları və xidmətləri bazarı ilə bəzi iqtisadi münasibətlər elmi cəhətdən təkmilləşdirilmişdir;

–İnformasiya məhsulları və xidmətləri bazarına daxil olan məhsulların spesifik xüsusiyyətləri açıqlanmış, onların strukturu, klassifikasiyası müəyyənləşdirilmişdir;

–Dünya təcrübəsinin təhlili nəticəsində informasiya məhsulları və xidmətləri bazarının açıq iqtisadiyyat şəraitində sürətli inkişaf etdiyi və iqtisadi inkişaf üçün daha əhəmiyyətli olması elmi aspektdən əsaslandırılmışdır;

–İnformasiya məhsulları və xidmətləri bazarının inkişafının ölkənin intellektual inkişafı üçün əhəmiyyətli olması elmi mülahizələrlə müəyyənləşdirilmişdir;

–İnformasiya məhsulları və xidmətləri bazarının dövlət tənzimlənməsi yolları sistemli təhlil edilmiş və onların təkmilləşdirilməsi mexanizmləri göstərilmişdir;

–Azərbaycanın milli informasiya xidmətləri sisteminin formalaşması və effektivliyinin yüksəldilməsi üçün İKT sferasının, 4-cü ST platformasının, yüksək texnlogiyalar parkının, biznes inkubatorları şəbəkəsinin ağıllı istehsal yönümlü müəssisələrin təşviqi mexanizmlərinin konseptual istiqamətləri göstərilmiş və onun həyata keçirilməsində dövlətin və özəl sektorun elmi texniki əməkdaşlıq istiqamətləriəs aslandırılmış formada müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti Azərbaycan Respublikasında xidmətlər bazarının bütöv obyekti kimi informasiya xidmətləri bazarının formalaşmasının və inkişafının elmi nəzəri-metodoloji əsaslarının şərhindən və təkmilləşdirilməsindən ibarətdir. Tədqiqat materiallarından ali təhsil müəssisələrində müvafiq fənlərin tədrisində, xidmət sferası problemlərinin öyrənilməsi zamanı elmi tədqiqat və layihə işlərində İKT sferasının inkişafı konsepsiyasında istifadə edilə bilər. Tədqiqat zamanı əldə edilmiş praktiki nəticələr və qiymətləndirmələrdən, irəli sürülən təklif və tövsiyələrdən isə müvafiq sahədə dövlət siyasətini formalaşdıran və həyata keçirən mərkəzi və yerli idarəetmə orqanlarının fəaliyyəti zamanı istifadə edilə bilər. Bu isə tədqiqat işinin praktiki əhəmiyyətini daha da artırır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Müəllifin tədqiqat mövzusunun müxtəlif aspektlərinin təhlilinə həsr etdiyi və dissertasiya işinin əsas məzmununun əks olunduğu biri xaricdə olmaqla, 22 məqaləsi nəşr olunmuşdur. Bundan başqa müəllif bir çox elmi-praktik konfransda iştirak edərək dissertasiyanın əhatə etdiyi problemlər üzrə əldə etdiyi nəticələr barəsində məruzələrlə çıxış etmişdir. Həmin məruzələr də nəşr olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya 10 paraqrafı əhatə edən 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla dissertasiya işi ümumilikdə 245681 işarə, 166 səhifədir.

## DİSSERTASİYANIN STRUKTURU

**GİRİŞ**

**I FƏSİL. İNFORMASİYA MƏHSULLARI BAZARININ FORMALAŞMASININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİNİN TƏHLİLİ**

1.1. İnformasiya məhsulları bazarının mahiyyəti, formalaşma xüsusiyyətləri və təşəkkül mərhələləri

1.2. İnformasiya xidmətləri bazarı ilə əlaqədar mövcud ədəbiyyatın və elmi-tədqiqat işlərinin təhlili

1.3. İnformasiya xidmətləri bazarının əsası olan informasiya iqtisadiyyatı üzrə dünya təcrübəsinin tədqiqi

**II FƏSİL. AZƏRBAYCANDA İNFORMASİYA MƏHSULLARI VƏ XİDMƏTLƏRİ BAZARININ MÖVCUD VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Azərbaycanda İnformasiya xidmətləri bazarının texniki bazarı olan İKT sektorunun mövcud vəziyyətinin təhlili

2.2. İnformasiya məhsulları və xidmətləri bazarının mövcud vəziyyətinin tədqiqi və qiymətləndirilməsi

2.3. İnformasiya sektorunun inkişafı ilə iqtisadi inkişaf arasında asılılığın ekonometrik metodlarla müəyyən edilməsi

**III FƏSİL. AZƏRBAYCANDA İNFORMASİYA MƏHSULLARI VƏ XİDMƏTLƏRİ BAZARININ İNKİŞAF YOLLARI**

3.1. İnformasiya xidmətləri bazarının inkişafı aspektində İKT-nin məqsədyönlü perspektiv tətbiqi istiqamətləri

3.2. İnformasiya məhsullarının və resurslarının bazarda rəqabətqabliyyətliliyin artırılması yolları

3.3. İnformasiya xidmətləri bazarında elektron ticarət seqmentində regional inkişaf akpektlərinin təhlili

3.4. İnformasiyanın istehsalı və yayılmasının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

# MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS ELMİ MÜDDƏALAR

**Müddəa 1. Milli İnformasiya Cəmiyyəti quruculuğu şəraitində informasiya xidmətləri bazarının formalaşmasının elmi-nəzəri əsaslarının tədqiqi və onun qlobal bazara inteqrasiyası mərhələsində informasiya xidmətləri və məhsulları bazarında iqtisadi münasibətlərin formalaşması, inkişaf xüsusiyyətlərinin, prinsiplərinin və tendensiyalarının müəyyənləşdirilməsi, həmin sahənin Azərbaycanda inkişaf etdirilməsinin elmi cəhətdən əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir;**

Cəmiyyətdə və iqtisadiyyatda informasiyanın əhəmiyyətinin artması informasiya bazarının formalaşmasında dəyişikliklərə gətirib çıxarmış və nəticədə informasiya məhsulları və xidmətləri (İMX) bazarının inkişafına geniş zəmin yaratmışdır. Bu da öz növbəsində İnformasiya bazarının (İB) formalaşmasına və inkişafına səbəb olmuşdur. Hal-hazırda bir çox tədqiqatçılar İMX bazarını informasiya bazarından çoxda fərqləndirmirlər. Baxmayaraq ki, İB anlayışı həm alimlər, həm də praktiklər tərəfindən geniş istifadə olunur, lakin onun tam razılaşdırılmış vahid bir tərifi yoxdur. Ümumiləşdirilmiş kateqoriya kimi qeyd etmək olar ki, İnformasiya bazarı, alqı-satqı prosesi ilə əlaqədar münasibətlərin yarandığı və həyata keçirildiyi elə məhsul mübadiləsi sahəsidir ki, burada informasiya məhsullarının istehsalçıdan istehlakçıya ötürülməsinin təşkili üzrə konkret fəaliyyət mövcuddur.

Hazırda İB özündə iki böyük bazarı birləşdirir. Birincisi informasiya resursları bazarı, ikincisi isə informasiya məhsulları və xidmətləri bazarıdır. İnformasiya resursları insanlar tərəfindən cəmiyyətdə ictimai, sosial, iqtisadi və s. məqsədlər üçün istifadə olunan və maddi daşıyıcılarda qeydə alınan biliklərdir. İnformasiya resursları informasiya məhsullarının yaradılması üçün baza rolunu oynayır. Buna müvafiq olaraq, informasiya məhsulları və xidmətləri İB strukturunun ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

İnformasiya məhsulları və xidmətləri bazarı subyektlər arasında yaranan iqtisadi münasibətlər sistemidir. Bu bazarda alıcılara hesablama texnikası, elektron komponentlər, proqram təminatı, kommunikasiya vasitələri və sair təklif edilir. Bu və ya digər informasiya məhsul və xidmətləri bazarı informasiya bazarı üçün son dərəcə vacib hesab olunur. Bu, verilmiş mübadilə sistemində fəaliyyət göstərən informasiya strukturlarının məcmusu kimi xarakterizə olunur.

Dünya informasiya xidmətləri və məhsulları bazarı dünya təsərrüfat sisteminin böyük seqmentini özündə birləşdirir. Cəmiyyətin intellektual sərvəti (elmi, texniki, texnoloji, sosial, kommersiya və s. haqqında informasiya) məhz informasiya bazarı vasitəsilə yenidən paylanır və yeni dəyər yaradır. Dünya informasiya məhsulları sərt qaydalarla idarə olunaraq rəqabət mübarizəsinin qanunauyğunluqlarına cavab verir və yüz minlərlə subyektin qarşılıqlı fəaliyyətini özündə biləşdirir.

İnformasiya xidmətləri bazarının inkişafı bir çox hallarda cəmiyyətin informasiya təminatının yaxşılaşdırılmasına xidmət edir. 4-cü Sİ platforması olan yeni texniki – texnoloji vasitələrin formalaşması informasiya resurslarının vaxtında toplanması, yığılması, operativ işlənməsi və dünyanın istənilən nöqtəsinə ötürülməsini çox sürətləndirmişdir. Bunun nəticəsi olaraq, operativ qərarların qəbul edilməsi və cəmiyyətə, sosial- iqtisadi inkişafa məqsədyönlü təsir göstərmək əhəmiyyətli dərəcədə asanlaşmışdır. Bu səbəbdən, inkişaf etmiş və etməkdə olan ölkələr son illərdə informasiyaların yaranması, yayılması və emalı ilə bağlı problemlərin həllinə xüsusi diqqət göstərirlər.

**Müddəa 2. Qabaqcıl ölkələrdə informasiya iqtisadiyyatının, o cümlədən informasiya xidmətləri və məhsulları bazarının qloballaşması fenomeninin öyrənilməsi, inkişaf etməkdə olan ölkələrin həmin bazara iqtisadi, sosial və institusional inteqrasiyası üçün yaratdığı yeni imkanların elmi-nəzəri aspektdən əsaslandırılmasına tələbat vardır;**

Elmi ədəbiyyatda “informasiya iqtisadiyyatı” anlayışı altında informasiya və biliklərin istehsalı, saxlanması, emalı və yayılmasındakı fəaliyyət nəticəsində daxili məhsulların axınını təmin edən

iqtisadiyyat başa düşülür. Burada əsas diqqət çəkən məqam ondan ibarətdir ki, bu prosesdə ümumi işçi qüvvəsinin yarısından çoxu iştirak edir.

İnformasiya iqtisadiyyatı problemləri 1994-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatı almış ABŞ iqtisadçısı Con Harsaninin tədqiqatlarından sonra daha geniş şəkildə tədqiq olunmağa başlamışdır. Onun tədqiqatları iqtisad elminin nisbətən yeni sahəsi kimi təzahür edən informasiya iqtisadiyyatı üçün nəzəri bünövrə hesab olunmuşdur. Həmin dövrdən başlayaraq informasiya və onunla bağlı texnologiyalar ÜDM-in inkişaf sürətini müəyyən edən əsas sahələrdən birinə çevrilmişdir. Bu proses eyni zamanda, vətəndaş cəmiyyətinin formalaşmasını, inkişafını və təşəkkülünü müəyyən edir ki, bu da öz növbəsində, sosial sahənin, iqtisadi artım və inkişafın sürətinin yüksəlişində öz əksini tapır.

Dünyanın müxtəlif ölkələrində informasiya cəmiyyətinin formalaşması təcrübəsini təhlil edərək üç əsas modeli ayırmaq olar: Yapon modeli (Cənub-Şərqi Asiya ölkələri də bu modelə riayət edir), Amerika modeli (İngiltərə, Kanada, Latın Amerikası ölkələri ABŞ təcrübəsindən istifadə edir), Avropa modeli (onun əsas istiqamətləri MDB ölkələri tərəfindən qəbul edilib).

Bunlara müvafiq xarici təcrübələrin fəal şəkildə öyrənilməsi, onlardan örnək götürmək bacarığı və onların ən effektiv biznes modellərinin, texnologiyalarının, proseslərinin, hazır məhsullarının, idarəetmə üsullarının və digər tərəqqilərinin ölkəmizin şərtlərinə uyğunlaşdırılması, iqtisadiyyatın rəqəmsallaşdırılmasının ən səmərəli vasitəsi olmalıdır. Hazır həllərin uğurlu və tez uyğunlaşdırılması müvəffəqiyyətin əsasını təmin edir. Ən böyük şirkətlər üçün hazır platforma həllərini və xidmətlərini effektiv şəkildə uyğunlaşdırmaq və tətbiq etməklə yanaşı digər sənaye iştirakçıları və həllər yaradıcıları ilə tərəfdaşlıq yaratmaqla bazarın formalaşmasında fəal iştirak etmək daha məqsədəuyğundur. İnformasiya iqtisadiyyatının formalaşdırılmasında uğur nümayiş etdirən hər bir ölkənin öz təcrübəsi var və onların bütün müsbət cəhətlərinin inkişaf etdirilərək ölkənin müvafiq strukturlarında tətbiq edilməsi iqtisadi inkişafda yeni əlavə imkanların aşkara çıxarılmasına gətirir.

**Müddəa 3. İnformasiya xidmətləri bazarının əsas texniki-texnoloji bazası olan İKT sferasının Azərbaycandakı mövcud vəziyyətinin təhlili, informasiya xidmətləri və məhsulları bazarının dinamik inkişafa nail olmaq imkanlarını təsdiqləyir;**

Azərbaycan İKT-dən istifadə səviyyəsinə görə MDB məkanında liderliyini qoruyub saxlayır. Əhalinin infomasiya bazalarına çıxışı ilə əlaqəli əhəmiyyətli işlər görülmüşdür. Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan İKT-nin dövlət səviyyəsində istifadə edilməsinə görə dünya ölkələri arasında 49-cu, dövlət hakimiyyət orqanlarında İKT-nin tətbiqinə əsasən isə 31-ci yeri tutmuşdur. Hesabatda ölkəmizdə İKT-yə aid qanunvericilik və dövlət tənzimlənməsi amilləri də qənaətbəxş qiymətləndirilmişdir. Məktəblərdə internetə çıxış səviyyəsinə əsasən Azərbaycan 56-cı yeri, biznesdə innovasiya potensialına görə isə 29-cu yeri tutmuşdur. Azərbaycan hökumətinin İKT-nin tətbiq edilməsi üçün dövlət hazırlığı reytinqi də yüksək qiymətləndirilmişdir. Bu parametrə əsasən ölkəmiz dünyanın ilk 30 ölkəsi sırasında yer almış, İKT sahəsi üzrə hökumət prioriteti 38-ci, qabaqcıl texnologiyaların dövlət səviyyəsində satın alınması 16-cı yerdə, gələcək inkişaf baxımından bu sektorun əhəmiyyətinə dövlət diqqəti 40-cı yerdə olmuşdur.[1]

İKT sektorunda gerçəkləşdirilən məqsədyönlü tədbirlər sayəsində 2000-2016-ci illərdə İKT sektorunda informasiya və rabitə xidmətlərinin həcmi (müqayisəli qiymətlərlə) orta hesabla ildə 20% olmuşdur. Bu göstərici dünya üzrə orta illik artım tempindən yüksəkdir. Həmin illər ərzində informasiya və rabitə xidmətləri sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmi 4.3 dəfə, o cümlədən daxili investisiyaların həcmi 4.1 dəfə, xarici investisiyaların həcmi isə 7.9 dəfə artmışdır. Əgər 2000-ci ildə informasiya və rabitə xidmətləri sektorunda əsas kapitala yatırılan investisiyaların həcmi 45 milyon manat təşkil etmişdisə, 2016-cı ildə bu investisiyaların həcmi 199.4

---

[1]Azərbaycan rəqəmlərdə 2018/ tər.ed. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. -Bakı, 2018. -138 s., s.54

milyon manat təşkil etmişdir. İnformasiya və rabitə xidmətləri ilə birlikdə İKT-nin digər sahələrində də investisiya qoyuluşu artmışdır.[2]

Aparılan statistik təhlillərə əsaslanaraq belə nəticə çıxarmaq olar ki, Azərbaycanda İKT sektorunun infrastruktur təminatı (ASAN xidmət, Elektron hökümət, Peyk xidməti və s.) informasiya məhsulları və xidmətləri bazarının inkişaf etdirilməsi üçün qənaətbəxş səviyyədədir. İnformasiya məhsulları və xidmətləri bazarının inkişafı isə ilk öncə intellektual potensialın yaranmasını və istifadə edilməsini tələb edir.

Hər bir ölkənin iqtisadi inkişafının davamlığının təmin edilməsində informasiya-kommunikasiya texnologiyaları (İKT) qabaqlayıcı və təkanverici rol oynayır. Hazırki dövrdə Azərbaycanın sürətli inkişaf siyasətinin üstünlük təşkil edən istiqamətlərindən biri olan İKT bütün sosial-iqtisadi sahələrə və insanların gündəlik həyat fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə və iqtisadiyyatın vacib tərkib hissələrindən birinə çevrilmişdir.

Hazırda Azərbaycanda İKT-dən istifadənin kütləviləşdirilməsi və inkişafı üçün təqdirəlayiq addımlar atılmaqdadır. Azərbaycan informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı sahəsində yeni mərhələyə qədəm qoymuşdur. Ölkədə dövlət orqanları, biznes qurumları və vətəndaşların qarşılıqlı fəaliyyətində İKT sektorun verdiyi imkanlardan geniş surətdə istifadə olunur. İKT sektoru neftdən sonra ölkə iqtisadiyyatında ikinci prioritet sahə hesab olunur.

Bütün bunların nəticəsidir ki, Azərbaycanda informasiyalaşdırmanın aşağıda verilmiş bir çox istiqamətləri daha çox formalaşmaqda və inkişaf etməkdədir:

- Dövlət strukturlarının idarə olunmasında, telekommunikasiya və İKT vasitələrinin inkişafı;
- İstehsal sahələrinin, həmçinin sosial – xidmət sferasının və nəqliyyatın informasiyalaşdırılması;
- Ərazi idarəetmə sahələrinin informasiyalaşdırılması.

[2] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. İnformasiya cəmiyyəti: [Elektron resurs]. –Oktyabr 4, 2019. URL: https://www.stat.gov.az/source/information_society/

İstənilən ölkənin iqtisadi inkişafının davamlığının təmin edilməsində İKT qabaqlayıcı və təkanverici rol oynayır. Hazırki dövrdə Azərbaycanın sürətli inkişaf siyasətinin üstünlük təşkil edən istiqamətlərindən bütün sosial-iqtisadi sahələrə və insanların gündəlik həyat fəaliyyətinə sürətlə nüfuz edən, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsi və iqtisadiyyatın mühüm tərkib hissələrindən biri olan İKT sektorunun inkişafına dövlət və özəl investisiyaların həcmi artırılmalıdır. Bunun üçün özəl sektora təşviq mexanizmi tətbiq edilməlidir.

Eyni zamanda, sözügedən sektorda innovasiyanın tətbiqinə, xarici və yerli investisiyaların cəlb edilməsinə zəmin yaranmışdır. Beləliklə, İKT sahənin inkişaf dinamikasının davamlılığını təmin etmək üçün aşağıdakı istiqamətdə işlərin aparılması tələb olunur.

1. İKT sahəsinin məhsul və xidmətlərinə tələbatın artmasını nəzərə alaraq, sözügedən sektor da davamlı inkişafa nail olunması;

2. Dünya trendində İKT sektorunun sürətli inkişafını nəzərə alaraq, bu sahədə yalnız kəmiyyət deyil, həmdə keyfiyyət dəyişiklikləri aparılmalıdır;

3. İKT sahənin mövcud inkişaf göstəricilərinin yaxşılaşdırılmasının milli iqtisadiyyatların informasiyalaşma səviyyəsini kifayət qədər ətraflı surətdə əks etdirdiyini əsas tutaraq, Azərbaycanın zəif tərəflərinin inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.

**Müddəa 4. İnformasiya Cəmiyyəti və iqtisadiyyatı şəraitində informasiya resurslarının əməyin həlledici vasitəsinə çevrilməsi və yeni istehsal üsulunun yaranması ilə əlaqədar informasiya xidmətləri və məhsulları bazarında baş verən iqtisadi-texniki proseslərin elmi cəhətdən araşdırılması həmin sahənin potensial imkanlarını aşkara çıxarır;**

Aparılan statistik qiymətləndirmələr nəticəsində görmək olar ki, ölkədə telekommunikasiya xidmətləri sektorunda yaranan əlavə dəyərin həcmi təqribən 10 dəfəyə qədər artmışdır. Bu dövrdə informasiya və rabitə xidmətlərinin həcminin (müqayisəli qiymətlərlə) orta illik artımı 20% olmuşdur (Qrafik 1).

Göründüyü kimi, informasiya və rabitə sektoru Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biridir. Xüsusən

2000-2016-cı illərdə informasiya və rabitə sektorunda yaranan əlavə dəyər 9.3 dəfə, xalis mənfəətin həcmi 7.6 dəfə və ümumi mənfəətin həcmi 9.6 dəfə artmışdır (Qrafik 2 və 3).




**Mənbə**: *Qrafik DSK-nın materialları əsasında hazırlanmışdır.*

**Qrafik 1. İnformasiya və rabitə xidmətlərinin həcmi (müqayisəli qiymətlərlə) əvvəlki ilə nisbətən, faizlə**




**Mənbə**: *Qrafik DSK-nın materialları əsasında hazırlanmışdır.*

**Qrafik 2. İnformasiya və rabitə xidmətləri sektorunda yaranan əlavə dəyərin artımı (cari qiymətlərlə)**




**Mənbə**: *Qrafik DSK-nın materialları əsasında hazırlanmışdır.*

**Qrafik 3. İnformasiya və rabitə sektoru üzrə əlavə dəyər, ümumi, mənfəət, xalis mənfəət, milyon manatla**

Qrafik 3-dən göründüyü kimi, 2015-ci ildə baş verən devalvasiyadan sonra qeyd olunan göstəricilər üzrə müəyyən qədər azalma baş vermişdir.

Statistik məlumatlara əsaslanaraq demək olar ki, 2005-2016-cı illərdə rabitə və informasiya sektorunda istehsal olunan ÜDM-in ölkə üzrə ÜDM-ə nisbətində azalma olmuşdur. Belə ki, 2005-ci ildə informasiya və rabitə sektorunda istehsal olunan ÜDM-in (bazar qiymətlərində), ölkə üzrə ÜDM-də xüsusi çəkisi 2.13% olduğu halda 2015-ci ildə 2%, 2016-cı ildə 1.75% təşkil etmişdir (Qrafik 4.).




**Mənbə**: *Qrafik DSK-nın materialları əsasında hazırlanmışdır.*

**Qrafik 4. İnformasiya və rabitə sektorunda ÜDM-in ümumi ÜDM-də payı, %**

Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 22 oktyabr tarixli fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında informasiya və rabitə texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)”, həmçinin İnformasiya cəmiyyətinin inkişafı üzrə Milli strategiya (2014) və Telekommunikasiya və İnformasiya texnologiyasının inkişafı üzrə strateji yol xəritəsi (2017) informasiya və rabitə texnologiyalarının geniş tətbiqinə imkan yaradan, eləcə də bölgələrdə geniş yayılmasını təmin edən mükəmməl fəaliyyət konsepsiyaları olmuşdur. Proqrama uyğun olaraq, hələ 2008-ci ildə Azərbaycan informasiya texnologiyalarının inkişafı sahəsində ümumdünya orta göstəricilərinə çatmış, bu sektorun inkişafına 150 milyon ABŞ dolları yönəldilmişdir.[3]

Beləliklə, informasiya məhsulları və xidmətləri bazarının inkişafı İKT-nin inkişaf etmə səviyyəsindən birbaşa asılıdır. İKT avadanlıqları və informasiya təminatı infrastrukturu informasiya məhsulları və xidmətləri bazarının inkişafının özülünü təşkil edir. İnformasiya məhsulları intellektual əməyin məhsulu olur və bu məhsulun satılması, ötürülməsi və emalı da intellektual əmək və ya İKT infrastrukturu vasitəsi ilə gerçəkləşdirilir.

**Müddəa 5. İnformasiya sektoru ilə iqtisadi inkişaf arasındakı asılılığın ekonometrik metodlarla və kompüter modelləşdirilməsi vasitəsi ilə qiymətləndirilməsi İKT-nin inkişafının iqtisadi artıma səbəb olduğunu təsdiqləyir;**

İKT sektorda investisiya həm inkişaf etmiş ölkələrdə, eləcə də inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu oynayır. İKT hazırlığı ilə rəqabət qabiliyyəti səviyyəsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Daha yüksək inkişaf etmiş İKT sektoruna malik ölkələr daha yüksək səviyyədə rəqabət qabiliyyətinə

[3]Azərbaycan Respublikasında informasiya texnologiyaları və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) // Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir: [Elektron resurs]. URL: http://e-qanun.gov.az/framework/10778

malikdirlər. Belə ki, informasiya texnologiyaları iqtisadiyyatın effektivlik dərəcəsini uzunmüddətli perspektivdə yüksəltmək imkanı verir.

Yuxarıda qeyd edilmiş asılılığın ekonometrik modelinin qurulması üçün məlumat bazası olaraq 2000-2018-ci illəri əhatə edən datalar istifadə edilmişdir. Məlumatlar Dünya Bankının rəsmi saytından əldə edilmişdir. İKT və iqtisadi artım arasındakı əlaqəni müyyən etmək üçün ÜMD asılı dəyişən, sabit telefon istifadəçilərinin sayı, internet istifadəçilərinin ümumi əhali sayına olan nisbəti və İKT məhsullarının idxalı sərbəst dəyişən kimi istifadə edilmişdir.

Ekonometrik modellərin tətbiqi ilə qiymətləndirmə aparılan zaman vacib şərtlərdən biri də əldə edilən nəticələrin etibarlılığıdır. Buna nail olmaq məqsədilə günümüzə qədər müxtəlif metodologiyalar tətbiq olunmaqla, nəticələrin etibarlılığını yoxlamaq məqsədilə fərqli yanaşmalar irəli sürülmüşdür. Dissertasiya işində bütün qiymətləndirmələr Eviews 9 proqramı üzərindən aparılmışdır.

Bu tədqiqat işində nəticələrin etibarlılığını yoxlamaq üçün və ya digər ifadə ilə izah etsək, tədqiqat obyekti olan asılılıqların qiymətləndirilməsi üçün ən kiçik kvadratlar (LS) üsulundan istifadə edilmişdir. Ən kiçik kvadratlar üsulu reqressiya analizinin əsas üsullarından biri olub, təsadüfi xətalar daşıyan dəyişənlərin qiymətləndirilməsində istifadə olunur. Bu üsulun mahiyyəti ölçmə nəticəsində əldə olunan qiymətlər və gözlənilən qiymətlər arasındakı fərqin (xətanın) kvadratının minimal olmasına əsaslanır. Funksiyanın modeli elə seçilir ki, onun verdiyi qiymətləri arasında olan fərqlər kvadratlarının cəmi də minimum olsun.

Modeldən əldə olunan nəticələr göstərir ki, İKT məhsullarının idxalında baş verən 1% artım, iqtisadi artımı 0.45% artırır. Sabit telefon istifadəçilərinin sayının 1% artması iqtisadi artımın 0.08% artmasına səbəb olur. Və son olaraq, internet istifadəçilərinin sayının 1% artması, iqtisadi artımın 3.22% artmasına səbəb olur. R squared dəyəri asılı dəyişənin neçə faizinin sərbəst dəyişənlə izah olunduğunu göstərir. Modeldə aslı dəyişən ÜDM-nin 96%-i əsas dəyişənlər ilə izah olunur. P dəyərinin 5%-dən kiçik olması modelin əhəmiyyətli olduğunu göstərir.

Qeyd olaraq bildirilməlidir ki, dəyərləndirmə zamanı yalnız İKT-nin iqtisadi artıma təsiri nəzərə alınmış, digər faktorların təsiri sabit qəbul edilmişdir. İqtisadi artım və İKT arasındakı səbəb-nəticə əlaqəsini müəyyən etmək üçün VAR modeli çərçivəsində Granger Casuality testi edilmişdir. Optimal gecikmə uzunluğunu müəyyən etmək üçün VAR modeli təsadüfi seçilən gecikmə uzunluğu ilə qiymətləndirilmişdir (Cədvəl 1.):

**Cədvəl 1. Optimal gecikmə uzunluğu**

| İnformasiya Kriteriyaları | | | | | | |
|---|---|---|---|---|---|---|
| Gecikmə | LogL | LR | FPE | ACİ | SC | HQ |
| 0 | -677.8573 | NA | 1.22e+32 | 85.23217 | 85.42531 | 85.24206 |
| 1 | -625.0875 | 72.55847* | 1.34e+30 | 80.63594 | 81.60168 | 80.68540 |
| 2 | -600.1532 | 21.81754 | 7.28e+29* | 79.51915* | 81.25747* | 79.60817* |

**Mənbə**: *Müəllifin e-views proqramında etdiyi hesablamalar əsasında tərtib edilmişdir.*

Qalıqlara gecikmə ölçüsü müəyyənləşdirmə testləri tətbiq olunmuşdur. Bu testlərin nəticələri cədvəl 2.3.2-də təqdim olunmuşdur. Optimal gecikmə səviyyəsi dörd kriteriyanın gecikmə ölçüsünü 2 göstərməsi səbəbi ilə analizdə gecikmə səviyyəsinin 2 olmasına qərar verilmişdir.

**Cədvəl 2. Granger Causality testi nəticələri**

| $H_0$ Hipotezi | ChiSquare | P-dəyəri |
|---|---|---|
| Log(ÜDM)  Log(İKTİ)-ın Granger səbəbi deyildir | 1.167101 | 0.5579 |
| Log(İKTİ)  Log(ÜDM)-in Granger səbəbi deyildir | 9.747934 | 0.0076 |

**Mənbə:** *Müəllifin e-views proqramında etdiyi hesablamalar əsasında tərtib edilmişdir.*

Testin nəticəsinə görə, p dəyəri 0.05-dən böyük olduğu üçün iqtisadi artımdan İKT-yə doğru Granger səbəb münasibətinin olmadığını bildirən $H_0$ hipotezi qəbul edilir. Lakin p dəyərinin 0.05-dən kiçik olması İKT-dən iqtisadi artıma doğru Granger səbəb münasibətinin olmadığını bildirən $H_0$ hipotezi rədd edilir. Testin nəticəsinə əsa-

sən, iqtisadi artım ilə İKT arasında tək tərəfli, İKT-dən iqtisadi artıma doğru bir münasibətin olduğu müəyyən edilmişdir. Əldə edilən nəticələr, İKT-nin iqtisadi artıma səbəb olduğunu göstərir.

**Müddəa 6. İnformasiya xidmətləri məhsullarının müvafiq bazarlarda rəqabət qabiliyyətliliyinə birbaşa təsir edən əsas amillərin təhlili və qiymətləndirilməsi, həmin sahədəki təhlükələrin və çağırışların yaranmasını müəyyənləşdirir və qlobal informasiya məkanının bütün səviyyələrində rəqabətliliyin yüksəlməsinə səbəb olur;**

Qeyd etmək lazımdır ki, sürətli qloballaşma və informasiya cəmiyyətinin formalaşması şəraitində informasiya məkanında, bütövlükdə dövlətlərin, ayrılıqda informasiya bazarının peşəkar iştirakçılarının rəqabət qabiliyyətliliyinə birbaşa təsir edən yeni əsas amillər kimi aşağıdakıları göstərmək olar:

- əlçatan informasiyanın insan dərrakəsinin bütün ağlabatan hədlərini və bioloji imkanlarını aşan qədər artması. Bu, bir tərəfdən, ən geniş kütlələri əhatə etmək, digər tərəfdən, insanlar üçün məlumat axınını tez və səmərəli şəkildə çeşidləmək imkanı yaratmaq məqsədilə informasiya kütləsinin fraqmentasiya, informasiyanın maksimal şəkildə sadələşdirilməsi və detallaşdırılması tendensiyasını müəyyənləşdirir, yəni şəxsiyyətin şüurlu (və şüursuz) seçim hüququ çox konkret şəkildə həyata keçirilir;
- informasiya axınlarının transsərhəd xarakterinin olması, informasiyanın sürətli və keyfiyyətli ötürülməsi üçün getdikcə daha təkmil kanallar təklif edən informasiya və telekommunikasiya texnologiyaları və xidmətlərinin ucuzlaşması hesabına kütlələrin istənilən informasiyalara qeyri-məhdudiyyət çıxışının genişlənməsi;
- daxili (milli) informasiya məkanının tədricən iki paralel hissəyə - kütləvi (yalnız yerli analoq və bəzən kabel televiziyası; yerli çap mediası əlçatandır) və elit (qlobal peyk televiziyası, xəbər agentlikləri, çap mediası) tədricən seqmentləşdirmək. Artıq indi, istisnasız dünyanın bütün ölkələrində, cəmiyyətin iki prinsipial fərqli dünyagörüşü və davranış modelinin - kütləvi və elitar modellərin mövcudluğu açıq-aydın görünür;

- informasiyanın (kontentin) məzmun hissəsinin kütlənin daha rahat qavraması üçün əyləncəli şou formatına köçürülməsi, o cümlədən xəbər, siyasi, sosial, mədəni informasiyanın. Eyni zamanda, siyasiləşməyə meyilli olan əyləncəli formatdakı kontentinsə (yumor, tok-şou, maarifləndirici proqramlar) intellektual yükü güclənir;

- ingilis-amerikan (anqlosakson) formatının həm dil, təfəkkür və stereotiplər, həm də istifadə olunan qaydalar, mexanizm və alətlər baxımından qlobal və milli informasiya məkanının əsas və dominant formatı olaraq möhkəmlənməsi.

Bu amillər, eyni zamanda yeni təhlükələrin və çağırışların yaranmasını müəyyənləşdirir və qlobal informasiya məkanının bütün səviyyələrində rəqabətin güclənməsinə səbəb olur.

**Müddəa 7. İnformasiya xidmətləri bazarının elektron ticarətlə bağlı seqmentinin mövcud vəziyyətinin xüsusiyyətlərinin, strukturunun qabaqcıl dünya ölkələrində tədqiqi və həmin məsələnin yerli şəraitdə sorğu metodu ilə tədqiqatının nəticələri müvafiq sahədə dövlət səviyyəsində tədbirlərin həyata keçirilməsinin önəmliliyini göstərir;**

Vurğulamaq lazımdır ki, dünya ölkələrində olduğu kimi Azərbaycanda da internet iqtisadiyyatın ən çox tərəqqi etmiş müasir sahəsi olan e-ticarət sahəsinə təsir göstərmişdir. E-ticarət iqtisadi fəallığın yüksək templə dəyişdiyi, iqtisadi səmərəliliyin artdığı bir sahə kimi qiymətləndirilir. İnternet vasitəsilə ticarət əməliyyatlarının düzgün strategiyalarla təşkil edilməsi, rəqiblər arasında rəqabət üstünlüyünün yaradılmasına, əməkdaşlarla əlaqələrin möhkəmləndirilməsinə, işçi qüvvəsindən, texnologiya və mexaniki ehtiyatlardan optimal istifadəyə zəmin yaradır. E-ticarətin verdiyi məlumatlardan faydalanaraq məhsuldarlığı artırmaq və münasibətlərin daha da inkişaf etdirilməsi mümkündür. Azərbaycan iqtisadiyyatının başqa sahələrindəki məhsulların tanıdılmasını və satışını həyata keçirmək üçün internet vasitələri əvəz edilməz alətlərdir.

Müasir iqtisadi cəmiyyətdə e-ticarət fəaliyyətinin informasiya təminatı hesabına birbaşa biznes əməliyyatlarının həyata keçirilməsinə, mövcud və potensial alıcılarla, təchizatçılar və tərəfdaşlarla münasibətlərin intensiv şəkildə qurulmasına, məhsul və xidmətlərin modern tələb və standartlara müvafiq istehsalına, hədəf auditorianın

müəyyən olunması və bazarda rəqabət üstünlüyü yaradacaq mövqenin əldə edilməsinə, dünyada mövcud olan inkişaf perspektivlərindən geri qalmamağa şərait yaradır. Bütün bu fəaliyyətlərin həyata keçirilməsində internet mühiti yeni imkanlar verir. Nəticədə dövlətin icra etməli olduğu vəzifələri arasında əhalinin internetə çıxışını daha da asanlaşdırmaq, e-ticarətlə məşğul olmaq istəyən təşəbbüskarlara öz dəstəyini vermək durur. Müəssisələrin əsas məqsədləri isə internetin verdiyi imkanlardan faydalanmaq və yarana biləcək hansısa çətinliyi öncədən təsəvvür etmək və həll yollarını ən optimal şəkildə tapmaqdır.

Müvafiq sahənin təhlili üçün aparılan anket-sorğuda 306 insan iştirak edib. İştirak edənlərin 153-ü qadın, 153-ü isə kişidir. Sorğu 15 sualdan ibarətdir. Sorğunun nəticələrindən belə çıxır ki, e-ticarət Azərbaycanda əsasən sürətli inkişafdadır. Bu da müştərilərin ona marağının nəticəsində yaranmışdır. Belə ki, müştərilər e-ticarətin imkanları ilə yaxından maraqlanır, onun avantajlarından faydalanaraq çatışmazlıqlarını da müəyyən edirlər.

Azərbaycan Respublikasında e-ticarət formasının daha çox vasitəçilik olaraq inkişaf etməsi sorğuda müəyyən edilmişdir. Ən geniş istifadə olunan onlayn mağazalar arasında vasitəçilik fəaliyyəti göstərənlərin üstünlük təşkil etməsi onu göstərir ki, onlar daha çox tanınıb və onlara daha çox müraciət olunur. Buna səbəb isə e-ticarətlə məşğul olmaq istəyən insanların üzləşdikləri problemlərdir. Bu problemlərə internetin baha qiymətə olması, həmçinin, alınan vergilərin daha yüksək olması, təhlükəsizliklə bağlı qarşılarına çıxa biləcək problemlər və s. aiddir. Məhz e-ticarət sahəsinə olan marağın artmasına görə dövlət səviyyəsində tədbirlərin həyata keçirilməsi önəmlidir.

**Müddəa 8. İnformasiya xidmətləri bazarında informasiyanın istehsalı, emalı, yayılması və təhlükəsizliyi ilə bağlı mövcud dövlət siyasətinin əsas məqsədlərinin, vəzifələrinin, hüquqi rejiminin formalaşdırılması üzrə problemlərin araşdırılması həmin sahədə mövcud tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsini və yenilərinin işlənməsini zəruri edir.**

İnformasiya bazarında ilkin baxışda dövlətin məqsədlərini aşağıdakı kimi göstərmək olar:[4]

1. İnformasiya təhlükəsizliyinə nəzarət. Bu məsələnin bir neçə həlli var. Birinci, bu, hökumətin və digər dövlət orqanlarının məlumatlarının məxfiliyini, o cümlədən, dövlət orqanlarının məlumatlarının həm öz ölkələrinin kriminal aləmindən, həm də digər dövlətlərin müvafiq strukturlarından qorunmasını təmin etməkdən ibarətdir. İkinci, bu, dövlət təbliğatı və senzuranın müxtəlif formaları ilə təmin olunan cəmiyyətdə arzu olunan münasibətlərin dəstəklənməsidir.

2. Maliyyə hədəfləri. Məlum olduğu kimi, informasiya məhsulları istehsalı, iş yerləri yaradan və dövlətin xəzinəsinə vergi şəklində böyük miqdarda pul ödənişlərini daxil edən böyük bir sahədir. Bu, dövlətin informasiya məhsulları və xidmətlərinin istehsalının gəlirliliyi və davamlılığına, xüsusən də müəllif hüquqlarının həm qanunlarla qorunmasına, həm də onların təcrübədə tətbiq olunmasını təmin etməyə marağını artırır.

3. Sənaye siyasəti. İnformasiya bazarının bir sıra seqmentləri, məsələn, kino və proqram təminatı istehsalı, sənaye siyasətinin vacib obyektləri kimi nəzərdən keçirilir. İstər kinoteatr, istərsə də KİV ən azı qismən də olsa həqiqi və ya potensial təbliğat vasitəsi kimi dəstəklənirsə, proqram təminatı hər şeydən əvvəl iqtisadi inkişaf vasitəsi kimi nəzərdən keçirilir.

Məlumatların istehsalı və yayılması üçün hüquqi bir rejimin formalaşdırılması barədə danışanda qeyd etmək lazımdır ki, bu hüquqi rejimin ayrılması üçün konstitusiya və hüquqi əsas olaraq Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı müddəası çıxış edir: "hər kəsin məlumatı istənilən qanuni üsulla sərbəst şəkildə axtarma, alma, ötürmə, istehsal etmə və yayma hüququ vardır.[5]

İnformasiya hüquqlarını "qanuni üsulla" həyata keçirmək tələbi, bu hüquqların reallaşdırılması məqsədilə müəyyən qaydalar kom-

---

[4] Скрипкин, К.Г. Экономика информационных продуктов и услуг: МГУ, - 2019. – 192 с., s.74

[5]Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2017, – 96 s.

pleksinin tərtib edilməsini şərtləndirir. Bu cür qaydalar dövlət tərəfindən təsdiqlənməlidir, yəni ümumi mütləq gücə malik olmalı, informasiyanın axtarışı, əldə edilməsi, ötürülməsi, istehsalı və yayılması üzrə özündə icazələr, öhdəliklər, məhdudiyyətlər və qadağalar sistemini cəmləşdirməlidir.

## NƏTİCƏ

Bu gün kommunikasiya və informasiya texnologiyaları, qabaqcıl yenilikləri birləşdirən çox istiqamətli innovasiya prosesləri hər dövlətin ümumi inkişaf səviyyəsi və potensialı barədə məlumat vermək, mədəni, intellektual, sosial-iqtisadi artımı təmin etmək üçün vacib meyarlardan birinə çevrilmişdir. Danılmaz bir həqiqətdir ki, bunlar mövcud iqtisadi demokratikləşmə, tərəqqi və insan hüquqlarının qorunması baxımından inkişafın ən yüksək mərhələsinə çatmış ölkələrin qazandıqları uğurlar və informasiya iqtisadiyyatına əsaslanan mütərəqqi biliklərdir. Dünya təcrübəsi göstərir ki, innovasiyaların inkişafını dövlət quruculuğu prosesinin vacib zəmanəti hesab edən, elmi və texniki biliklərə əsaslanan, hər zaman mütərəqqi ənənələrə söykənən iqtisadi inkişaf strategiyası quran dövlətlər, milli tərəqqidə və s. dünya səhnəsində.

Bütövlükdə iqtisadi dinamikanın inkişafı, yuxarıda qeyd olunduğu kimi, uzunmüddətli meyllər əsasında formalaşan böyümə nəzəriyyələrində ifadə olunur. Lakin iqtisadi inkişafdakı böyümə nəzəriyyəsi ilə yanaşı iqtisadi fəaliyyətin dalğalanan təbiətinə əsaslanan "inkişafın dövriyyəsi" nəzəriyyələri daha çox yayılmışdır.

Onu da qeyd etmək lazımdır ki, "İnformasiya, informasiya texnologiyaları və informasiyanın mühafizəsi haqqında" Qanunun yeni redaktəsində informasiya resursları mülkiyyətçisi və informasiya istifadəçisi (istehlakçısı) anlayışları yoxdur, onlar informasiya sahibi anlayışı ilə əvəz edilmişdir:

Hər sahədə liderliyini saxlayan ölkəmizdə təhsilin inkişaf etməsində informasiya və kommunikasiya texnologiyalarından istifadəyə diqqət artırılır. İndi ölkəmizdə fəaliyyətdə olan hər bir məktəblərdə dərslər informasiya və kommunikasiya texnologiyalarnın imkanlarından faydalanmaqla tədris edilir.

Müəllimlər məktəblərdə e-dərsliklərdən, e-kitabxanalardan çox istifadə edirlər. Hər il yüzlərlə müəllim informasiya və kommunikasiya texnologiyaları kurslarına cəlb olunur. “Hər şagirdə bir kompüter” çağırışı gerçəkləşdirilir.

Texnologiyalar əsri sayılan müasir dövrümüzdə İKT sektorunun genişləndirilməsinə, bu şəbəkədə çalışacaq ixtisaslı proqramçıların və kadrların hazırlanmasına dövlət səviyyəsində diqqət artırılır.

Bu gün hər bir sosial təbəqə bu texnologiyalardan istifadə etməklə hakimiyyət orqanları ilə interaktiv münasibət qurmağa başlayırlar.

Elektron hökumət həllərinin istifadəsini genişləndirmək üçün aktiv səylər sayəsində Azərbaycan hazırda BMT-nin elektron hökumət sıralamasında 193 ölkə arasında 68-ci yerdədir. Bu gün ölkənin 46 mərkəzi icra hakimiyyəti orqanı elektron hökumət portalına qoşulub və portalda göstərilən xidmətlərin sayı 405-ə çatıb.

Araşdırmalar nəticəsində dünya praktikasında sınaqdan keçirilmiş bəzi strategiyaların uğurunu gördükdən sonra bu tətbiqetmənin ölkə iqtisadiyyatının inkişafına və ölkənin inkişafında ölkədən istifadə edərək ölkənin inkişafına dəstək ola biləcəyi qənaətinə gəlmək üçün bəzi təkliflər verildi:

Azərbaycan Respublikasının statistikasına görə elektron ticarət alışlarının 99,4% -i qeyri-ərzaq məhsullarıdır. Bu şərtlərdən istifadə edərək İnternetdə qida məhsulları ilə ticarət etmək mümkündür. Bu ticarət iki şəkildə təhlil edilə bilər:

- Azərbaycan Respublikasının təbiətindəki kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlara ixracı və satışı;
- Azərbaycan Respublikasının inhisar qida bazarlarında alternativ və minimum qiymətlərlə rəqabət mühiti yaratmaq, onun tərkib hissəsi olan məhsulları təklif etmək mümkündür.

Veb saytlar elektron ticarət əməliyyatlarının həyata keçirildiyi yerlərdir. Daxili veb saytın dizaynı çox vacibdir. Veb sayt ziyarətçiləri axtardıqları məlumatları və ya məhsulları asanlıqla tapa bilməlidirlər. Bu səbəbdən veb saytların inkişafı daha peşəkar dizaynerlərə tapşırılmalıdır. Bundan əlavə saytları asan başa düşülən,

əyləncəli və əyləncəli etmək ziyarətçi sayını artıracaq və saytı daha əlçatan edəcəkdir.

Ənənəvi ticarətdə, geri ödəmə müddəti 2 həftə olaraq təyin edilir, lakin bu müddət elektron ticarət üçündür. 1 həftə ilə məhdudlaşır. Azərbaycan Respublikasındakı elektron ticarət şirkətləri məhsulun qaytarılmasını qəbul etmir və alıcını qəbul etmir. razılığa gətirib çıxarır.

Elektron ticarət sektoruna tətbiq olunan vergi sistemi sektorun inkişafını ləngidir və bunun qarşısını almaq üçün bank sistemi xidmətlər üçün deyil məhsullar üçün vergi endirimlərini hesablayan bir sistem yaratmalıdır. Xüsusilə dövlət bu sektorun inkişafı üçün təşviq və təşviqlər yarada bilər.

Dissertasiya tədqiqatının nəticələrinə görə, Azərbaycanda elektron ticarət sürətlə inkişaf edir. Bu, alıcıların ona olan marağından irəli gəlir. Beləliklə, müştərilər elektron ticarətin imkanları ilə yaxından maraqlanır, üstünlüklərindən faydalanır və çatışmazlıqları müəyyənləşdirirlər. Tədqiqat nəticəsində Azərbaycan Respublikasında elektron ticarətin vasitəçi kimi inkişafı müəyyənləşdirilib. Ən çox istifadə edilən onlayn mağazalar arasında satıcıların yayılması onların daha çox tanındıqlarını və tələb olunduqlarını göstərir. Bunun səbəbi elektron ticarət etmək istəyən insanların qarşılaşdıqları çətinliklərdir. Bu problemlər arasında internetin yüksək qiyməti, daha yüksək vergilər, təhlükəsizlik məsələləri və s. aiddir. Elektron ticarətə marağın artması ilə əlaqədar dövlət səviyyəsində tədbirlər həyata keçirmək vacibdir.

Beləliklə, qeyd edilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Dövlət informasiya bazarında üç əsas hədəf qrupunu həyata keçirir: ölkənin və onun vətəndaşlarının informasiya təhlükəsizliyinin təmin edilməsi, fiskal məqsədlər və sənaye siyasəti hədəfləri.

2. Bu məqsədlər ümumilikdə bir-biri ilə təzad təşkil edir: informasiya təhlükəsizliyi sahəsində qanunvericiliyin inkişaf etdirilməsi iqtisadi fəallığı məhdudlaşdırır, bu da vergi daxilolmalarını azaldır və şəxsi informasiya məhsulları istehsalını çətinləşdirir. Cari vergi daxilolmalarının artırılması öz növbəsində

yerli istehsalçıların perspektivlərini çətinləşdirir və potensial təhlükəli fəaliyyətlərin bazara daxil olmasına imkan yaradır.

3. İnformasiya təhlükəsizliyi sahəsində tənzimləmə, dövlət orqanları üçün potensial təhlükəli olan məlumatların yayılmasının məhdudlaşdırılması, vətəndaşların sağlamlığına zərər verən fəaliyyətlərin məhdudlaşdırılması və texnoloji təhlükəsizliyin təmin edilməsi problemini həll edir.

4. Fiskal tənzimlənmə hüquqi informasiya bazarının genişlənməsini və bu bazarda yeni fəaliyyət növlərinin vergiyə cəlb edilməsini təmin edir. Birinci məsələ üçün saxta informasiya məhsullarının yayılmasına qarşı mübarizə xüsusi əhəmiyyət kəsb edir.

5. Sənaye siyasəti informasiya bazarında böyük və uğurlu milli oyunçu yetişdirilməsi problemini həll edir. Bu sahədə ənənəvi proteksionist tədbirlər, informasiya məhsulunun maya dəyəri, əhəmiyyətli keçid xərcləri və Çin bazarı istisna olmaqla demək olar ki, istənilən milli bazarın məhdud həcmi ilə məhdudlaşır.

6. Bu şərtlərdə sənaye siyasətinin tövsiyyə edilən məqsədi qlobal informasiya bazarında rəqabət qabiliyyətli oyunçuların yetişdirilməsidir. Bu oyunçular, şübhəsiz ki, informasiya bazarının bütün seqmentlərində bacarıq nümayiş etdirməyəcəklər, buna görə bəzi məhsulların ixracı başqalarının idxalı ilə birləşdiriləcəkdir. Bu problemin həlli məqsədilə informasiya məhsullarının standartlaşdırılması, xüsusən də açıq standartlar əsasında standartlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilən nəticə və təkliflər dərc olunmuş aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. Методика оценки научных инноваций. «ЭКОНОМИСТ», Киев, 2015 г №2, стр. 47-50

2. Azərbaycanda təhsil sisteminin informatlaşmasında elektron resursların əmtəə dövriyyəsinin rolu . ADPU, “Təhsildə İKT” Elmi-metodik jurnal. Bakı, ADPU.2016. №4, s.111-117

3. İnformasiyanın istehsalı, yayılması və təkmilləşməsi istiqamətləri. ADPU, "Təhsildə İKT". Elmi-metodik jurnal, Bakı, ADPU, 2018. №2,s.201-207

4. Azərbaycanda informasiya məhsulları və xidmətləri bazarının mövcud vəziyyəti. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. (Region və sahə iqtisadiyyatı). 2018, (mart-aprel), s.76-82

5. İnformasiya sektoru ilə iqtisadi inkişaf arasında asılılığın müəyyən edilməsi Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" elmi praktiki jurnalı, 2018. №4 (51), s.167-177

6. İnformation economy in world practice. Miçdzynarodowe czasopismonaukowe Colloquium–journal, 2018. №7(18), s.6-9

7. İKT-nin inkişafı və məqsədyönlü istifadə istiqamətləri. Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" elmi praktiki jurnalı, 2019. №2(53), s.98-104

8. İnformasiyanın təkmilləşməsi istiqamətləri. AMEA-nın Xəbərləri, "İqtisadiyyat" seriyası, 2019 (noyabr-dekabr), s.114-119

9. Методы электронной коммерции в странах мира. ЕВРАЗИЙСКИЙ СОЮЗ УЧЕНЫХ (ЕСУ) Ежемесячный научный журнал. 2020. № 1 (70) - 4 часть. s.18-23

10 Elektron ödəniş vasitələri. Azərbaycan memarlıq və inşaat universiteti, "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, 2020. № 2, s.452-455

11. Yeni məhsulun informasiya təminatının təşkilati metodiki aspektləri. Regional İnnovasiya fəaliyyəti: Reallıqlar və perspektiv inkişaf. Gəncə, 13-14 dekabr, 2012, s.162-165

12. İnformasiya-kommunikasiya texnologiyalarının iqtisadi inkişafda rolu Doktorantların və gənc tədqiqatçılarının XXII Respublika elmi konfransının materialları. Bakı, 2018

13.Роль информационных ресурсов инновационного развития страны Международная научно-практическая конференция «Знание – стратегический ресурс новой экономики». Самара, октябрь, 2015 г.

14. Комплексная программа НИС Азербайджана. Москва международная научно-практическая конференция «Инновации в современном мире».20 февраля 2015 г.

15. Индикаторы для оценки инновационной активности НИИ Азербайджана. Международная научно-практическая конференция «Инновации в современном мире» Москва. Получен сертификат. 20 февраля 2015 г

16. Azərbaycanda informasiya məhsullarının ticarəti. BMU, Dedicatedtothe 94th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev I international scientific conference of YOUNG RESEARCHERS. Baku Engineering University, Baku, Azerbaijan 05-06 May 2017

17. Azərbaycanda informasiya məhsullarının inkişafı yolları. Ali məktəb müəllimlərinin I Respublika formunun materiyalları, Bakı, 2017 18. Azərbaycanda mövcud informasiya məhsulları və onun inkişafı Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransı. 22-23 noyabr, 2018

19. Azərbaycanda innovasiyaların maliyyələşdirilməsi vəziyyətinin qiymətləndirilməsi, 2022

20 Azərbaycanda innovasiyaların maliyyələşdirilməsi vəziyyətinin qiymətləndirilməsi. GEOSTRATEGİYA, 2022. №3 (69)

21. The Main Global Trends In Scientific And Technological Development In The World, Classification And Assessment Of Scientific And Technological Development Level. Migration Letters, Cild. 21 № S5 (2024) (Scopus Q2)

Dissertasiyanın müdafiəsi 13 sentyabr 2024 tarixində saat $11^{00}$ Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (economics.com.az) yerləşdirilmişdir.

Avtoreferat 03 iyun **2024-cü il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.05.2024
Kağızın formatı: A5
Həcm: 50046
Tiraj: 100